**Novruzova S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.180-189**
**UDC: 341.645.5**

# The principle of proportionality in the practice of the European Court of Human Rights

**Abstract:** In the presented article is made a short excursion into the historical development of the principle of proportionality, is studied the precedent chronicle of its inclusion in the practice of the European Court of Human Rights. The component elements of the principle of proportionality are analyzed in detail. The critical opinions available in the literature regarding this principle were studied, and an attempt was made to distinguish between their justified and unjustified aspects. The corresponding analysis was carried out with reference to specific court cases from the practice of the ECtHR.

**Key words:** human rights; freedoms; Court; Convention; restriction; interference; decision; principle of proportionality.

## References

1. Barak A. Proportionality. Constitutional Rights and their Limitation. Cambridge: Cambridge University Press, - 2012. - 638 p.
2. Belgium Linguistics**.** Application no 1474/62; 1677/62; 1691/62; 1769/63; 1994/63; 2126/64: HUDOC. Available at: https: //hudoc.echr.coe.int/eng#{%22itemid%22: [%22001-55398%22]}
3. Christoffersen J**.** Fair Balance: Proportionality, Subsidiarity and Primarity in the European Convention on Human Rights. - Leiden, Boston, - 2009. - 686 p.
4. Dennis v. United States, 341 U.S. 494, 524–525 (1951). Available at: https://www.oyez.org/cases/1940-1955/341us494
5. European Union Association Agreement. Available at: https://eur-lex.europa.eu/resource.html?uri=cellar:2bf140bf-a3f8-4ab2-b506-fd71826e6da6.0023.02/DOC_1&format=PDF
6. Handyside v United Kingdom. App no5493/72: HUDOC. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57499%22]}
7. Kanstantsin Dzehtsiarou. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, Vol. 49, No. 1, 2017, pp.89-134;
8. Lawless v**.** Ireland**.** Judgment of the ECtHR of 01.07.1961: HUDOC. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57518%22]}
9. Otto-Preminger-Institut v Austria.Judgment of the ECtHR 20.09.1994: HUDOC. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-155981%22]}
10. Protocol (No 2) on the application of the principles of subsidiarity and proportionality: EU law. Available at: https://eur-lex.europa.eu/legalcontent/EN/TXT/?uri=CELEX%3A12008E%2FPRO%2F02

♦ **Novruzova Saadat Samad –** PhD in Law**,** a lecturer of Legal Faculty of the Khazar University (Azerbaijan). E-mail: saadat_n@yahoo.com

11. Dickman S.S. et al. Protection of the individual from discrimination. In 3 volumes. V. 1. Moscow, Novaya yustitsiya Publ., 2009, 424 p. (in Russian).

12. Cohen-Eliya M., Porat I. The American method of weighing interests and the German proportionality test: Historical roots // Comparative Constitutional Review. Moscow, 2011. No. 2(81), pp. 68-73 (in Russian).

13. Stavros Tsakirakis. Proportionality: an attack on human rights? // Comparative Constitutional Review. 2011. No. 2 (81), pp.47-66 (in Russian).

14. Vosskule A. The principle of proportionality // Comparative Constitutional Review. - 2015. No. 1 (104), pp.159−163;

15. Chernyshova O.S. The European Court of Human Rights and the German Constitutional Court: influence, not a competition. Interview with Judge of the European Court of Human Rights Angelika Nussberger // Available at: https://cyberleninka.ru/article/n/evropeyskiy-sud-po-pravam-cheloveka-i-konstitutsionnyy-sud-germanii-vozdeystvie-a-ne-sopernichestvo-intervyu-s-sudiey-evropeyskogo

**Novruzova S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.180-189**
**UOT: 341.645.5**

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında mütənasiblik prinsipi

**Xülasə:** Təqdim olunan məqalədə mütənasiblik prinsipinin tarixi inkişaf yoluna qısa ekskurs edilmiş, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında onun yer almasının presedental xronikası nəzərədən keçirilmişdir. Mütənasiblik prinsipinin tərkib ünsürləri detallı analiz edilmişdir. Bu prinsiplə bağlı ədəbiyyatda mövcud olan tənqidi fikirlər öyrənilmiş, onların əsaslı və əsassız cəhətlərini ayırd etməyə səy göstərilmişdir. Müvafiq araşdırmalar İHAM-ın təcrübəsindən konkret məhkəmə işlərinə istinad etməklə aparılmışdır.

**Açar sözlər:** insan hüquqları; azadlıqlar; Məhkəmə; Konvensiya; məhdudiyyət; müdaxilə; qərar; mütənasiblik prinsipi.

Hazırda mütənasiblik prinsipi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra- İHAM və ya Məhkəmə) presedent hüququnda özünə möhkəm yer etmiş, İnsan hüquqları və əsas azadlıqların müdafiəsinə dair Avropa Konvensiyası (bundan sonra – Konvensiya) ilə nəzərdə tutulmuş hüquq və azadlıqların üzv-dövlətlər tərəfindən məhdudlaşdırılmasının mümkünlüyünü və ya yolverilməzliyini araşdırmaq üçün fəal şəkildə istifadə olunan metoddur.

Konvensiyada, habelə məhkəmə presedent hüququnda mütənasiblik prinsipinin konkret definisiyası verilmir. Avropa Birliyi haqda Müqavilənin5-ci maddəsinə əsasən, Birliyin səlahiyyət hədləri səlahiyyət vermə prinsipi ilə müəyyən olunur. Bu səlahiyyətlərin həyata keçirilməsi isə

♦ **Novruzova Səadət Səməd qızı -** Hüquq üzrə fəlsəfə doktoru, Xəzər Universitetinin Hüquq kafedrasının müəllimi (Azərbaycan). Email:saadat_n@yahoo.com

subsidiarlıq və proporsionallıq (mütənasiblik) prinsipləri ilə tənzimlənir... Mütənasiblik prinsipinə müvafiq olaraq, Birliyin hərəkətlərinin məzmunu və forması Müqavilələrin məqsədlərinə nail olmaq üçün kifayət edən çərçivədə olmalıdır [5]. Birliyin institutları mütənasiblik prinsipini Subsidiarlıq və mütənasiblik prinsiplərinin tətbiqi haqda Protokola [10] uyğun olaraq tətbiq edirlər.

Mütənasiblik prinsipi adətən Avropa hüququnun icadı kimi qeyd olunsa da, əslində, hüququn həmişə əsas prinsiplərindən olmuşdur. Mütənasiblik (*ing.* proportionality) termini ədalət mühakiməsinin simvolundan da bəlli olduğu kimi, rəqib mənafelərin metaforik tərəzi üsulu ilə tutuşdurulmasını ehtiva edir. Müasir doktrinası Prussiya hüququnda, ardınca Almaniya hüquq fəlsəfə və nəzəriyyəsində inkişaf etdirilmişdir. Xüsusən, G.Radbruxun əsərləri bu prinsipin doktrinasının formulə edilməsində mühüm əhəmiyyət daşıyır. Hazırda alman hüquq nəzəriyyəsində mütənasiblik prinsipinin tətbiqi aşağıdakı alqoritmləhəyata keçirilir:

- hüquq və azadlıqların həyata keçirilməsinə dövlət orqanları tərəfindən müdaxilə olmuşdurmu;
- müdaxilə olmuşsa, qanunla nəzərdə tutulmuşdurmu;
- müdaxilə qanunla nəzərdə tutulmuşsa, onun məqsədi legitimdirmi;
- məqsəd legitimdirsə, həmin müdaxilə üsulu onu təmin etmişdirmi;
- məqsəd digər, nisbətən az ağır vasitələrlə təmin edilə bilərdimi;
- fərdin məruz qaldığı məhrumiyyət və qorunan ictimai mənafelər arasında mütənasiblik (əhəmiyyətə görə tarazlıq) varmı.

Bu etapların hər hansı birində pozuntunun müəyyən edilməsi qanun pozuntusunu təsdiq etmək üçün kifayətdir, yəni işin sonrakı etaplar üzrə araşdırılması lazım gəlmir. Buna görə, ədəbiyyatlarda bu cür alqoritmik yoxlama üsulu bəzən “mütənasiblik testi” adlandırılır.

Beləliklə, mütənasibliyin yoxlanılması üç mərhələli struktura malikdir: məqbulluğun müəyyən edilməsi (məqsədlə bağlı məsələlərin həlli); zərurət (vasitələrlə bağlı məsələlərin həlli); dar anlamdamütənasibliyin (məqsəd və məhdudlaşdırılan hüquqlararasında tarazlıq) müəyyən edilməsi [14, s.160].

Danimarkalı hüquqşünas J.Kristoffersen bilavasitə bu mövzuya həsr olunmuşgeniş həcmli əsərində qeyd edir ki, İHAM-da mütənasiblik prinsipi Almaniya hüquq nəzəriyyəsivə Almaniyanın konstitusiya hüququ doktrinası ilə üst-üstə düşmür və ümumiyyətlə, alman mütənasiblik doktrinasını  AİHM-in prktikasınaköçürmək mümkün deyil [3, s.34-35].

İHAM-ın sabiq hakimi alman hüquqşünas Nussbergerin fikrincə, İHAM öz qərarlarında mütənasiblik prinsipinə alman doktrinal ardıcıllığı ilə olmasa da, ümumən və mahiyyətcə əməl edir [15].

Əlbəttə, milli hüquq sistemi çərçivəsində formulə edilmiş doktrina beynəlxalq səviyyədə fəaliyyət göstərən məhkəmə qurumunun fəaliyyətinə eyni ilə köçürülə bilməz. Hər hansı milli doktrina beynəlxalq məhkəmə qurumunun statusuna və fəaliyyət prinsiplərinə uyğun olaraq labüd transformasiya olunur. Digər tərəfdən, mütənasiblik prinsipinin alman doktrinası insan hüquq və azadlıqlarının müasir sistemi və təminatları olmayan vaxtlarda işlənib hazırlanmış, onun əsas qayəsi fərdi hüquq və mənafeləri dövlət tərəfindən ixtiyari müdaxilələrdən qorumaq idi.

İHAM-ın sələfi olan İnsan Hüquqları Komissiyasının fəaliyyətə başlamasından əvvəl Avropa kollektiv məkanında mütənasiblik prinsipinin tətbiqi ilə bağlı müəyyən təcrübə mövcud olmuşdur. Belə ki, 1950-1960-cı illərdə Avropa Ədalət Məhkəməsibir sıra işlərdə onun tətbiq təcrübəsi artıq formalaşımışdı [1, s. 185].

İnsan Hüquqları Komissiyasımütənasiblik prinsipini ilk dəfə "Lauless İrlandiyaya qarşı iş" üzrə 1 iyul 1961-ci il tarixli qərarında [8] əməli tətbiq etmişdir. Sonrakı qərarlar arasında 23 iyul 1968-ci il tarixli "Belçika Linqvistik işi" [2] xüsusi əhəmiyyət kəsb edir. Bu iş dillərin statusunda ayrı-seçkilik məsələlərinə aid olsa da, gəlinmiş nəticələr sonralar mütənasiblik prinisipinin doktrinasının müəyyən edilməsi baxımından əhəmiyyətli oldu. İnsan Hüquqları Komissiyası həmin işdə qət etmişdi ki, hüquqlara çatımlıq məsələsində subyektlər arasında fərq qoyulması obyektiv və ağlabatan əsaslara malik olmadığı halda bərabərlik prinsipi pozulmuş sayılır. Əsaslılıq, demokratik cəmiyyətlərdə ümumən üstünlük təşkil edən prinsiplər nəzərə alınmaqla, məhdudlaşdırıcı tədbirin məqsəd və nəticələrinə görə qiymətləndirilməlidir. Tətbiq olunan vasitələrlə qarşıya qoyulmuş məqsəd arasında ağlabatan mütənasibliyin olmadığı aydın şəkildə müəyyən edildikdə Konvensiyanın 14-cü maddəsi pozulmuş sayılmalıdır [11, s.111].

"Handisayd Birləşmiş Krallıqa qarşı" iş üzrə 7 dekabr 1976-cı il tarixli qərar dövlətlərin mülahizə azadlığı (*ing.* margin of appreciation) doktrinasının formulə edilməsi istiqamətində mühüm addım olmaqla, eyni zamanda, fərdi və ictimai mənafelər arasında balansın mühüm aspektlərini ayırd etdi. Qərarda qeyd olunur ki, dövlət orqanları öz ölkəsində həyatın gedişatı ilə birbaşa və daimi təmasda olduqları üçün, məhdudiyyətlərin zəruri olub-olmaması məsələsinin həllində beynəlxalq hakimlərdən daha yaxşı vəziyyətdədirlər. Bununla belə, hakim H.Mosler öz ayrıca rəyində müdaxilənin zəruri olmadığını tutarlı şəkildə əsaslandırmışdı [6].

Beləliklə, İHAM-ın fəaliyyətində mütənasiblik prinsipi konkret bir qərarla deyil, əlaqəli məsələlər üzrə çıxarılmış bir neçə qərarlda ifadə onunan hüquqi mövqelərin məcmusu olaraq ərsəyə gəlmişdir. Konvensiya hüququ çərçivəsində mütənasiblik prinsipi doktrinasının təşəkkül tapmasında Avropa Birliyi hüququnun, habelə ABŞ Ali Məhkəmə təcrübəsinin də təsiri qeyd olunmalıdır.

ABŞ Ali Məhkəməsinin təcrübəsində mütənasiblik prinsipinin özünəməxsus analoqu olan "maraqların ölçülməsi" metodu tətbiq edilir. Məhdudiyyətdən zərər çəkən sosial maraqlarıvə məhdudiyyətin nəyə nail olduğunu tutuşduraraq müdaxilənin məqbul olub-olmadığına qərar verilir. Lakin bir çox tədqiqatçıların fikrincə, bu iki prosedur genealoji fərqli olmaqla yanaşı, fərqli məqsədlərə xidmət etdiyindən bir-birinə analoq sayıla bilməzlər [12, s.69]. Qeyd edək ki, ABŞ təcrübəsində mütənasiblik prinsipi bir sıra metodların sintezi ilə tətbiq olunur.

ABŞ praktikasından fərqli olaraq, İHAM-ın praktikasındamütənasiblik prinsipi aşağıdakı alqoritmlə tətbiq edilir:

1. Məhdudiyyətin pozitiv hüquqla (dövlətlərin milli qanunvericiliyi ilə) nəzərdə tutulmuş olması, başqa sözlə, hüquqi müəyyənlik şərti. Məhdudiyyətin qanunla nəzərdə tutulmuş olmaması avtomatik olaraq Konvensiya pozuntusu doğurur, işin sonrakı bəndlər üzrə araşdırılmasına ehtiyac qalmır.

2. Məhdudiyyətin Konvensiyada sadalanan məqsədlərə xidmət etməsi. Konvensiyanın 8, 9, 10, 11-ci maddələri, 1 saylı Protokolun 1-ci maddəsi, 4 saylı Protokolun 2-ci maddəsi, 7 saylı Protokolun 1-ci maddəsi müvafiq hüquq və azadlıqların məhdudlaşdırılması üçün konkret əsaslar müəyyən edir. Bunlardanbaşqa əsasla hüquq və azadlıqların məhdudlaşdırılması Konvensiya pozuntusu doğurur. Bununla belə, Konvensiya hüququnun bəşəri reallıqların inkişafına uyğun təkamül edən bir sistem olduğu İHAM-ın baxdığı ilk işlərdə bəyan edilmişdir. Buna görə, həm ümumi inkişaf kontekstində, həm də konkret hallarda vəziyyətin spesifikliyi nəzərə alınmaqla Konvensiyanın həmin müddəaları genişləndirici və ya məhdudlaşdırıcı təfsir edilər bilər. Konvensiya (Protokollar daxil) və milli hüquq sistemləri İHAM üçün əsas daxili mənbə olsa da,

yeganə deyildir. Onlardan başqa, xarici mənbə kimi beynəlxalq hüquq aktları, habelə xüsusi statusa malik olan Avropa Birliyi hüququ [7, s.90-92] öz təsirini göstərir. Xüsusən, İnsan hüquqları Xartiyasının qüvvəyə minməsi, bu aktda Konvensiyada olmayan hüquqların müəyyən edilməsi, Avropa Ədalət Məhkəməsinin yeni yaranan presedentləri İHAM-ı öz presedent hüququna düzəlişlər etməyə sövq edir, çünki Avropa Şurası üzvü olan ölkələrin əksəriyyəti eyni zamanda Avropa Birliyi üzvüdür. Bu isə, özlüyündə müəyyən mənada konsensus, yaxud qərar vermək üçün yetərli sayılan konsensusa yaxınlaşma deməkdir. Eyni zamanda, Avropa Birliyi üzvü olmayan ölkələrlə bağlı müəyyən problemlər yaradır, çünki onlar yalnız Konvensiya çərçivəsində öhdəliklər daşıyır, Avropa Birliyi çərçivəsində cərəyan edən prosesləri Birlik üzvü olmayan ölkələrə birbaşa yansıtmaq mümkün deyildir. Təbii ki, bu faktor həm də Avropa Birliyinin Konvensiyaya qoşulmasının qarşısında əsas əngəldir.

3. Məhdudiyyətin demokratik cəmiyyətdə zəruri olması.

1970-ci illərdə baxılmış işlərdə Məhkəmə “zəruri” sözünün definisyasını müəyyən etmişdir. Xüsusən, “Handisayd Birləşmş Krallığa qarşı”iş üzrə qərarın 48-ci bəndində [6] “demokratik cəmiyyətdə zəruri” ifadəsi təfsilatlı izah edilir.

Məhz bu bənd, yəni məhdudiyyətlərin zəruri olub-olmaması və ya nə dərəcə zəruri olması İHAM praktikasında çəkişmə prosesinin əsas xəttini təşkil edir. Ümumi qaydaya görə, məhdudiyyətin zəruriliyinə dair qərar qəbulu baxımından milli orqanlar İHAM-la müqayisədə daha yaxşı mövqedə hesab olunurlar. Lakindaha yaxşı mövqedə olmaq Konvensiya hüququ baxımından daha adil qərar verə bilmək anlamına gəlmir. Elə isə, İHAM-a ehtiyac olmazdı. Dövlət orqanlarının qərarlarında adillik əsas etibarı ilə həmin dövlətin öz reallıqlarından çıxış edir.

Buna görə, mütənasiblik prinsipinin ədəbiyyatlarda diqqət edilməyən daha bir boyutu qeyd olunmalıdır. O, diəgr funksiyaları ilə yanaşı, ayrıca dövlətlərin ədliyyəsi ilə Konvensiya ədliyyəsini uzlaşdırmağa yönəlmiş bir metoddur. Ayrıca dövlət öz gələcəyini öz tarixi məcrasının məntiqi davamı kimi qavrayır və onun qərarlarında adillik məhz bu qavrayışlardan hasil olur. Avropa Şurası və digər birlşdirici qurumlar isə ümumi gələcək modeli təklif etməklə, ayrıca ölkələri öz görüşlərindən müəyyən məsələlərdə çəkilməyə sövq qedir. Bu mövzu hüquqşünaslıq çərçivəsinə sığmayan, kompleks fəlsəfə mövzusudur. Niyə əmin olmalıyıq ki, Avropa Şurası və digər beynəlxalq qurumların gələcək görüşləri daha müdrikdir? İnsan hüquqlarında liberallıq hansı hədlərdə olmalıdır? Bəşəri tərəqqidə beynəlxalq insan hüquqları prosesinin yeri necə olmalıdır? Əsas vəzifə insan hüquqlarını təmin etməkdir, yoxsa ekoloji təhlükəsizliyi, insan nəslinin davamlılığını təmin etmək?

Hədləri bilməmək üzündən posthumanizm, transhumanizm, voukizm kimi radikal cərəyanların yaranmasıqeyd olunmalıdır. Mənfəətpərəst vəkil kontorlarının,say-hesabsız QHT-lərin yaranması, insah hüquqlarının müdafiəsi adı altında, əslində isə sırf qazancnaminə İHAM-ı şikayətlərlə yükləməsi də problemi kimi qiymətləndirilməlidir.

“Demokratik cəmiyyətdə zərurilik” kateqoriyası və bu kontekstdə mütənasiblik prinsipihüquqşünaslar arasında uzun müddətdir davam edən kəskin polemika mövzusudur. Polemikalar ABŞ Ali Məhkəməsinin hakimləri arasında Konstitusiyaya Birinci düzəlişləbağlı başlamış [4], ardınca Avropa məkanında vüsət almışdır. İdeoloji olaraq liberalist və ya libertarian cinahı təmsil edən hüquqşünasların fikrincə, metaforik tərəzi üsulu insan hüquqlarına tətbiq olunan məhdudiyyətləri əsaslandırmaq və ya rədd etmək üçün ölçü ola bilməz. Tətbiq olunmuş məhdudiyyətin hüquq subyekti üçün doğurduğu nəticələr aşkar olduğu halda, qorunduğu iddia edilən mənafelərin bu məhdudiyyət olmadan hansı keyfiyyətdə və miqyasda zərər çəkə biləcəyi

aşkar olmur. Məhdudiyyət qərarı qəbul edən orqan onların heç biri barədə kifayət qədər dolğun təsəvvürə malik deyildir, sadəcə olaraq, xəyali modelləşdirmə ilə hərəkət edir.

Qeyd olunanları konkret məhkəmə təcrübəsində nəzərdən keçirməli olsaq, zamanında geniş və kəskin polemikalara səbəb olmuş, hazırda da belə polemikalarda əsas misallardan olan "Otto Preminger İnstitutu Avstriyaya qarşı" işi [9] əlamətdardır. Küfr mövzusunda ifadə azadlığı ilə bağlı bu işdə ərizəçinin şikayəti təmin olunmamış, filmin yayınının qadağan edilməsi və lentlərin müsadirə olunması 6/3 səs çoxluğu ilə demokratik zəmiyyətdə zəruri tədir kimi tanınmışdı. Avstriya hökuməti əsərin ölkədə çoxluq təşkil edən inanclı vədəndaşların legitim dini hislərini təhqir etdiyini əsas gətirmiş, İnsan Hüquqları Komissiyası bu əsaslandırma ilə ümumən razılaşmışdı. Qərarın əleyhinə olan hakimlər və bu qərarı mübahisə edən müəlliflər qeyd edirlər ki, film spesipik auditoriya üçün nəzərdə tutulmuş, yayın öncəsi kontentin həssaslığı barədə xəbərdaqlıq edilmiş, habelə tamaşa üçün yaş senzi müəyyən edilmişdi [13, s.53].

Qeyd edək ki, şikayət olunan hadisə 1985-ci ildə, İnternetin olmadığı, habelə kino zallarında gizli video çəkilişin mümkün olmadığı zamanda baş vermişdir. Odur ki,müəlliflərin və qanuni yayımçıların iradəsindən kənar filmin sürətinin çıxarılması, başqa platformalarda yayılması qeyri-mümkün idi. Buna görə, qeyd olunan arqumentlərə dövrünə görə müəyyən qədər haqq qazandırmaq olar. Hazırda texnoloji imkanlar hər hansı kontenti məhdud çərçivədə saxlamağı qeyri-mümkün edir. Lokal bir hadisə, məsələn, kiminsə dini kitabları küçədə yandırması videoçəkiliş edilərək qısa zamanda bütün dünyaya yayıla bilir. Buna görə, hansısa kontentə münasibətdə spesifik auditoriya arqumenti daha keçərli deyildir.

Digər tərəfdən, hər hası viral kontentin yayılmasının qarşısını almaq müasir texnologiyalar şəraitində mümkün deyil. Sosial şəbəkə platformalarının bir qismi ümumən müəyyən növ kontentlərin və bəzən konkret kontentlərin yayılmasını əngəlləsə də, bunu etməyən şəbəkələr də var. Üstəlik, süni intellekt proqramları vasitəsilə real çəkilişdən fərqlənməyən kontentlər hazırlayıb, anonim mənbələrdən yaymaq mümkündür.

Texnologiyaların həyata gətridiyi yeni paradiqmaların qarşısına qadağalarla çıxmaqdan daha çox, mədəni təkamüllə cavab vermək lazımdır. Hazırda İnternetdə bütün dinlərə, inanclara və başqa dəyərlərə qarşı təhqiramiz məzmunlu say-hesabsız kontent mövcuddur. İnternet kulturasına dair tədqiqatlardan da göründüyü kimi, müəyyən dəyər daşıyıcısı olan insanlar onların dəyərlərini alçaldan kontentlərdən uzaq durur, əsasən öz dəyərləri ilə uzlaşan kontentlərə üstünlük verirlər. Belə kontentlərdən qəzəblənmək, onların üstünə getmək, şikayət etmək onlara diqqət artırmaqdan, populyarlaşdırmaqdan başqa işə yaramır.

Bütün bunları və qeyd olunmayan digər nüansları nəzərə alaraq hesab edirik ki, ifadə azadlığı məsələsində hüquqi prosedurlar konkret şəxslərin və qrupların birbaaş ünvanlı təhqir olunduğu hallara yönəlməlidir.

Digər tərəfdən, "demokratik cəmiyyətdə zəruri olma" çoxluğun və ya digər güclü qrupların hislərinə mənfi təsir edən ifadələri qadağan etmək olacaqsa, ifadə azadlığı hüququ bu başdan rədd edilmiş deməkdir. Kiminsə hislərinə toxunmayan kontent onsuz da azaddır. İfadə azadlığı hüququ onun müqavimətlə rastlaşdığı hallarda müdafiə olunmasını ehtiva etmirsə, öz daxili məzmunundan məhrum edilir, absurdlaşır.

Demokratik cəmiyyətdə siyasi orqanların seçki ilə formalaşması, siyasi orqanların seçici kütləsindən asılılığı o deməkdir ki, məhkəmə qərarları da bunun doğurduğu siyasi gerçəklərədən təsirlənməyə məhkumdur. Hakimiyyətin bir qolu kimi məhkəmə hakimiyyətinin müstəqilliyi bir idealdır, siyasi reallıqların əsas həyat axını olduğu dünyada onu təmin etmək heç də həmişə

mümkün deyildir. Digər tərəfdən, hüquq tətbiq edən orqanlar cəmiyyətin yetirməsi olan insanlardan təşkil olunur, onların qərar qəbulunda daxili inamı və vicdanı cəmiyyətin haqq-ədalət idealları çərçivəsindədir. İHAM qərarlarında dəfələrlə qeyd olunduğu kimi, yerli orqanlar dövlətlərin mülahizə azadlığı çərçivəsində qərarlar qəbul etmək baxımından İHAM hakimləri ilə müqayisədə daha yaxşı vəziyyətdədir. Lakin bu, yuxarıda qeyd olunan səbəblərdən, yerli orqanlarınKonvensiyaya uyğun qərar vermək məqamında olması anlamına gəlmir. Dövlət orqanlarıdövlətin siyasi, sosial, mədəni maraqlarından çıxış etməyə daha çox meyl edirlər, nəinki insan hüquqlarından.

Mütənasiblik prinsipi Avropa Şurası üzvü olan ölkələrin konstitusion hüququnun əsaslarından biri kimi bəyan edilsə də, İHAM-a və Avropa Birliyinin məhkəmə qurumlarına ünvanlanan yüz minlərlə şikayət reallıqda insan hüquqları ilə bağlı “tərəzi metodunun” Konvensiya hüququ baxımından qənaətbəxş olmadığından xəbər verir.

Konvensiyanın 2-ci və 3-cü maddələri (qanuni müharibə əməliyyatları istisna olmaqla), 4-cü maddənin 1-ci bəndi, 7-ci maddə, 6 saylı Protokolun 3-cü maddəsi, 7 saylı Protokolun 4-cü maddəsinin 3-cü bəndi, 13 saylı Protokolun 2-ci maddəsi ilə nəzərdə tutulmuş hüquq və azadlıqlar mütləqdir, bu hüquqlar üzrə öhdəliklərdən geri çəkilməyə heç bir halda yol verilmir. Digər hüquq və azadlıqlara bağlı işlərdə İHAM-ın mövqeyi haçalanır: 1) Avropa konsensusu mövcud olan məsələlərdə cavabdeh dövlətin konsensusdan kənar qərarları Konvensiya pozuntusu kimi tanınır; 2) Avropa konsensusu olmayan işlərdə Məhkəmə qərarı əksər hallarda cavabdeh dövlətin xeyrinə verilir. Burda “əksər hallarda” ifadəsi onu nəzərdə tutur ki, Məhkəmənin presedent hüququnun inkişafı dövlətlərin mülahizə azadlığını mümkün qədər sıxışdırmaq istiqamətində inkişaf edir. Odur ki, konsensus olmayan işlərdə də şikayətin təmin olunması mümkündür və mütənasiblik prinsipinin tətbiqi məhz belə hallarda daha kəskin şəkil alır.

4. Məhdudiyyətin məqsədlə uyğunluğu (nəticəvi mütənasiblik).

Bu etapda tətbiq olunmuş legitim müdaxilə ilə, qorunduğu iddia edilən mənafelərin potensial zərəri arasında tarazlıq axtarılır. Məhdudiyyət olmayacağı halda qorunan mənafelərə vurula biləcək zərəri yalnız analogiya ilə təsəvvür etmək mümkündür. Digər məsələ olaraq, eyni nəticənin daha yumşaq müdaxilə üsulu iə təmin etməyin mümkün olub-olmadığı yoxlanılır. Bu halda həm cavabdeh dövlətin, həm digər ölkələrin analoji təcrübələrinə müraciət edilir.

Məsələn, keçmiş sosialist və sovet respublikalarında əvvəllər geniş təcrübə edilən və hazırda da bəzən rast gəlinən, təqsirləndirilən şəxslərin məhkəmə zalında metal qəfəslərdətəcrid edilməsi ilə bağlı çoxsaylı işlərdə Məhkəmə belə faktların Konvensiya pozuntusu olduğunu təsbit etmişdir. Cavabdeh ölkələr təqsirləndirilən şəxslərin xüsusi təhlükəli olduğunu iddia etsələr də, Məhkəmə Avropa ölkələrində təhlükəli şəxslərin məhkəmə zallarında iştirak praktikasının daha sivil metodlarını örnək göstərməklə, metal qəfəslər praktikasını bir qayda olaraq Konvensiyaya zidd hesab edən qərarlar çıxarır.

İstənilən halda, tərəzi metodunun bir gözündə müdaxilə ilə pozulan, zərərinin xarakteri və miqyası aşkar olan məhdudiyyət faktı qoyulduğu halda, digər gözdə analogiyalar yer alır. Ona görə, dəqiq mexaniki reallıqdan metafora kimi götürülmüş “tərəzi metodunun” hüquq sferası üçün dəqiqlikdən məhrum olmasını, ümumən şərti və bir sıra hallarda yüksək dərəcə şərti olduğunu qəbul etməliyik. Bu metodu tənqid edən mütəxəssislər onun yerinə reallıqda işlək ola bilən, daha effektiv alternativ təklif edə bilmirlər. Fikrimizcə, müəyyən qüsurlarına rəğmən mütənasiblik prinsipinin başqa heç bir alternativi yoxdur.

## Biblioqrafiya


1. Barak A. Proportionality. Constitutional Rights and their Limitation. Cambridge: Cambridge University Press, - 2012. - 638 p.

2. Belgium Linguistics. Application no 1474/62; 1677/62; 1691/62; 1769/63; 1994/63; 2126/64: HUDOC [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-55398%22]}

3. Christoffersen J. Fair Balance: Proportionality, Subsidiarity and Primarity in the European Convention on Human Rights. - Leiden, Boston, - 2009. - 686 p.

4. Dennis v. United States, 341 U.S. 494, 524–525 (1951). [Elektron resurs]. URL: https://www.oyez.org/cases/1940-1955/341us494

5. European Union Association Agreement. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/resource.html?uri=cellar:2bf140bf-a3f8-4ab2-b506-fd71826e6da6.0023.02/DOC_1&format=PDF

6. Handyside v United Kingdom. App no. 5493/72: HUDOC. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57499%22]}

7. Kanstantsin Dzehtsiarou. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, Vol. 49, No. 1, 2017, pp.89-134;

8. Lawless v. Ireland. Judgment of the ECtHR of 01.07.1961: HUDOC. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57518%22]}

9. Otto-Preminger-Institut v Austria. Judgment of the ECtHR 20.09.1994: HUDOC. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-155981%22]}

10. Protocol (No 2) on the application of the principles of subsidiarity and proportionality: EU law. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/legalcontent/EN/TXT/?uri= CELEX%3A12008E%2FPRO%2F02

11. Дикман С.С. и др. Защита личности от дискриминации. В 3 т. Т. 1. - М.: Новая юстиция, 2009. - 424 с.

12. Коэн-Элия М., Порат И.Американский метод взвешивания интересов и немецкий тест на пропорциональность: Исторические корни //Сравнительное конституционное обозрение. - М., 2011. - № 3(82). -С. 68-73

13. Ставрос Цакиракис. Пропорциональность: посягательство на права человека? // // Сравнительное конституционное обозрение. - 2011, № 2 (81). - С. 47-66.

14. Фосскуле А.Принцип соразмерности // Сравнительное конституционное обозрение. - 2015. № 1 (104). - С.159−163.

15. Чернышова О.С.Европейский суд по правам человека и Конституционный суд Германии: воздействие, а не соперничество. Интервью с судьей Европейского суда по правам человека Ангеликой Нуссбергер // Консультант Плюс [Elektron resurs]. URL: https://cyberleninka.ru/article/n/evropeyskiy-sud-po-pravam-cheloveka-i-konstitutsionnyy-sud-germanii-vozdeystvie-a-ne-sopernichestvo-intervyu-s-sudiey-evropeyskogo

**Новрузова С.С.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.180-189**
**УДК: 341.645.5**

## Принцип пропорциональности в практике Европейского суда по правам человека

**Аннотация:** Сделан краткий экскурс в историческое развитие принципа пропорциональности, изучена прецедентная хроника его включения в практику Европейского суда по правам человека. Подробно проанализированы составные элементы принципа пропорциональности. Были изучены критические мнения, имеющиеся в литературе относительно этого принципа, и предпринята попытка провести различие между их обоснованными и необоснованными аспектами. Соответствующий анализ был проведен со ссылкой на конкретные судебные дела из практики ЕСПЧ.

**Ключевые слова:** права человека; свободы; Суд; Конвенция; ограничение; вмешательство; решение; принцип соразмерности.

## Библиография

1. Barak A. Proportionality. Constitutional Rights and their Limitation. Cambridge: Cambridge University Press, - 2012. - 638 p.

2. Belgium Linguistics**.** Application no 1474/62; 1677/62; 1691/62; 1769/63; 1994/63; 2126/64: HUDOC [Электронный ресурс]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-55398%22]}

3. Christoffersen J**.** Fair Balance: Proportionality, Subsidiarity and Primarity in the European Convention on Human Rights. - Leiden, Boston, - 2009. - 686 p.

4. Dennis v. United States, 341 U.S. 494, 524–525 (1951). [Электронный ресурс]. URL: https://www.oyez.org/cases/1940-1955/341us494

5. European Union Association Agreement. [Электронный ресурс]. URL: https://eur-lex.europa.eu/resource.html?uri=cellar:2bf140bf-a3f8-4ab2-b506-fd71826e6da6.0023.02/DOC_1&format=PDF

6. Handyside v United Kingdom. App no. 5493/72: HUDOC. [Электронный ресурс]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57499%22]}

7. Kanstantsin Dzehtsiarou. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, Vol. 49, No. 1, 2017, pp.89-134;

8. Lawless v**.** Ireland**.** Judgment of the ECtHR of 01.07.1961: HUDOC. [Электронный ресурс]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57518%22]}

9. Otto-Preminger-Institut v Austria. Judgment of the ECtHR 20.09.1994: HUDOC. [Электронный ресурс]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-155981%22]}

♦**Новрузова Саадат Самед кызы** – доктор философии по праву, преподаватель юридического факультета, Университет «Хазар» (Азербайджан). E-mail: saadat_n@yahoo.com

10. Protocol (No. 2) on the application of the principles of subsidiarity and proportionality: EU law. [Электронный ресурс]. URL: https://eur-lex.europa.eu/legalcontent/EN/TXT/?uri= CELEX%3A12008E%2FPRO%2F02

11. Дикман С.С. и др. Защита личности от дискриминации. В 3 т. Т. 1. - М.: Новая юстиция, 2009. - 424 с.

12. Коэн-Элия М., Порат И.Американский метод взвешивания интересов и немецкий тест на пропорциональность: Исторические корни //Сравнительное конституционное обозрение. - М., 2011. - № 3(82). -С. 68-73

13. Ставрос Цакиракис. Пропорциональность: посягательство на права человека? // // Сравнительное конституционное обозрение. - 2011, № 2 (81). - С. 47-66.

14. Фосскуле А.Принцип соразмерности // Сравнительное конституционное обозрение. - 2015. № 1 (104). - С.159−163.

15. Чернышова О.С.Европейский суд по правам человека и Конституционный суд Германии: воздействие, а не соперничество. Интервью с судьей Европейского суда по правам человека Ангеликой Нуссбергер // Консультант Плюс [Электронный ресурс]. URL: https://cyberleninka.ru/article/n/evropeyskiy-sud-po-pravam-cheloveka-i-konstitutsionnyy-sud-germanii-vozdeystvie-a-ne-sopernichestvo-intervyu-s-sudiey-evropeyskogo